

**Sabir HAKA**
***(1986)***

İndiyədək
görmüsənmi xar tutun düşdüyünü?!
Öz qırmızılığını
torpaqla
necə bölüşdüyünü?!
(Düşmək kimi ağrılı şey yoxdur...)
Çox fəhlələr görmüşəm mən,
yıxılarkən tikintidən
xartut olurdular...

***
Tanrıyla dost olmamağımın
tək səbəbi
uzaq keçmişlərə gedib çıxır.
Belə ki,
altı nəfərlik ailəmiz
kiçik bir otaqda yaşadığı halda,
tək olan Tanrının evi
daha böyük idi
bizim evimizdən!

***
Bir gün ölsəm,
özümlə aparacağam
sevdiyim kitabların hamısını.
Sevdiyim insanların şəkli ilə
dolduracağam qəbrimi.

Kiçik bir otağım var deyə, sevinib,
gələcək qorxusu yaşamadan
uzanacağam,
bir siqaret yandıracağam,
sarılmaq istədiyim
bütün qızlar üçün
ağlayacağam.

Amma
böyük bir qorxu gizlənib
hər ləzzətin içində.
O qorxu ki,
səhər tezdən bir nəfər
çiynini tərpədib deyər:
– Qalx, Sabir!
İşə getməliyik...

***
Atam fəhlə idi.
İmanlı bir kişiydi,
hər dəfə namaz qılarkən
Tanrı
xəcalət çəkirdi
onun əllərindən!

***
Kaş ki, heç vaxt böyüməzdim
və anlamazdım
atamın mənə yalan dediyini:
"Torpağa nə əksən, bir gün cücərəcək
və bu, Tanrının lütfüdür!"

Niyə heç kim anlamır?
Uzun illər gözlədim mən,
amma
anam
cücərmədi!

***
Düşünürəm ki,
Tanrı da bir fəhlədir.
Məsələn, bir qaynaqçıdır
bütün başqa qaynaqçı kişilər kimi.
Onun gözləridir
gün batanda
hərdən qızaran.
Və köynəyidir
gecə
irili-xırdalı dəliklərlə dolu olan!